Azərbaycan.- 2021.- 13 aprel. S. 9.

# Fahrettin ALTUN: "Türkiyə işğaldan azad edilmiş ərazilərin bərpasında Azərbaycanın yanında olacaq"




"Bu torpaqlara gələn zaman Qarabağ zəfərinin necə böyük zəfər olduğunu bir daha açıq şəkildə anladıq. Bunu ürəkdən hiss etdik. Şəhid olan bütün qardaşlarımıza Allahdan rəhmət, yaralılara uzun ömür diləyirik. Bu zəfər üçün onlara minnətdarıq".

AZƏRTAC xəbər verir ki, bunu Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin sədri Fahrettin Altun Ağdam şəhərində jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, bu qələbə Azərbaycan, bölgə və Türkiyə üçün böyük bir zəfərdir: "30 illik işğal sona çatdırıldı. Həqiqətən, Prezident İlham Əliyevin qətiyyətli mövqeyi nəticəsində işğal aradan qaldırıldı və bölgə azad edildi. Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə bu haqlı mübarizədə Azərbaycana dəstək verdi. Bu gün bunun qürurunu yenidən burada yaşadıq".

Fahrettin Altun Ağdamda gördüyü erməni vəhşiliyindən bəhs edərək deyib: "Buradakı zülmü, əziyyəti və barbarlığı gördük. Bu, bənzəri olmayan bir barbarlıqdır. Burada barbarlıq olan zaman dünyanın, beynəlxalq təşkilatların necə ikiüzlü bir mövqe sərgilədiyini də gördük. Baxın, burada mədəniyyət abidələri tar-mar edilib. Amma özünü dünyanın mədəniyyət abidələrini qorumaq məsuliyyəti daşıyan qurumlardan heç bir səs çıxmayıb. Ona görə də buradakı mədəniyyət abidələri məhv edilib. Bu abidələr, əslində, türklüyün və islamın izlərini itirmək üçün məhv edilib. Amma bunu bacarmadılar, bacara bilməyəcəklər. Çünki bu torpaqlar türklərin, islamın torpaqlarıdır", - deyə Fahrettin Altun bildirib. Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin sədri işğaldan azad edilən torpaqların yenidən bərpa ediləcəyini vurğulayıb: "Azərbaycan sahibi olduğu torpaqları işğaldan azad etdi. Bir milyon azərbaycanlı qardaşımız bu torpaqlara dönəcək. Bu ərazilər yenidən bərpa olunacaq. Türkiyə dövlət və özəl qurumları ilə bu ərazilərin bərpasında iştirak edəcək. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıya səfəri zamanı dedi ki, biz bölgənin sülh göyərçinləri olmaq istəyirik. Eyni zamanda bölgənin əsas oyunçuları olaraq bir daha belə işğala imkan verməyəcəyimizi göstərdik. Ağdam da, Şuşa da, işğaldan azad edilən digər ərazilər də bərpa ediləcək, inkişaf edəcək, dünyanın cazibə mərkəzlərindən birinə çevriləcək. Biz bu yöndə bütün gücümüzlə azərbaycanlı qardaşlarımızın yanındayıq. İnşallah, birlikdə bu ərazilərin bərpasını, inkişafını təmin edəcəyik".

Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin sədri Fahrettin Altun UNESCO-ya müraciət edərək deyib: "Mən buradan UNESCO başda olmaqla bütün beynəlxalq təşkilatlara səslənərək bildirmək istəyirəm ki, ikili standartları kənara qoysunlar. Burada barbarlıq həyata keçirilib, mədəniyyət abidələri məhv edilib. Bu gerçəkləri heç bir şəkildə saxlaya bilməzlər".